

# Qəmər Əbdülrəhim qızı Adıgözəlova-Polçayeva

2010-cu ildə Azərbaycan oftalmologiyasının görkəmli nümayəndələrindən biri, tanınmış alim, t.e.d., professor Qəmər Əbdülrəhim qızı Adıgözəlova-Polçayevanın anadan olduğunun 95-illiyi tamam olmuşdur (1915-1992).

Professor Q.Ə.Adıgözəlova-Polçayeva 1957-1960-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun terapevtik şöbəsinin müdiri işləmişdir. Professor Q.Ə.Adıgözəlova-Polçayeva 1960-cı ildən başlayaraq, 30 ildən artıq müddətdə institutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. Qəmər xanım institutun uşaqların görmənin mühafizəsi və gözün virus patologiyası şöbələrinin elmi rəhbəri olmuşdur.

Əsl alimə xas olan keyfiyyətlər – geniş sənət bilikləri, sərbəst təfəkkür, qərəzsiz dünya görüşü prof. Q.Ə.Adıgözəlova-Polçayevaya yüksək dərəcədə məxsus idi. O, görmə üzvünün optik qüsurlarının ametropiyaları, çəpgözlüyün, astiqmatizmin, ambliopiyanın, anizometropiyanın haqqında anlayışlara bir çox yeniliklər gətirmişdir. Prof. Ü.C.Musabəyli ilə birlikdə o, oftalmologiyada ilk dəfə olaraq, uzağa akkomodasiyanın konsepsiyasını yaratmışdı. Bundan əlavə gözün müxtəlif mənşəli iltihabi xəstəliklərinin, gözün yenitörəmələrinin, uveal kataraktanın, traxomanın patogenezi problemlərinin işlənməsi də bir neçə onillik ərzində institutda onun rəhbərliyi altında aparılırdı.

Prof. Q.Ə.Adıgözəlova-Polçayeva oftalmologiyanın müxtəlif məsələlərinə dair 300-yə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Onun «Ametropiyalar zamanı gözün refraksiyasına akkomodasiya spazmının təsiri» və «Anizometropiya» adında monoqrafiyaları görmə üzvünün fiziologiyasının öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Prof. Q.Ə.Adıgözəlova-Polçayeva elmi və təcrübi oftalmoloq kadrlarının olduqca böyük bir dəstəsini hazırlamışdır. Prof. Q.Ə.Adıgözəlova-Polçayevanın rəhbərliyi altında 10-dan artıq namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə edilmişdir.

Qəmər xanım gözəl alim, yüksək ixtisaslı klinisist, məharətli diaqnost və oftalmocərrah olaraq böyük praktiki işi də aparırdı. O cümlədən, uşaqların görməsinin qorunmasında, refraksiyanın qüsurlarının erkən vaxtlarda aşkar edilməsində və müalicəsində onun rolu əvəzedilməzdir. Bununla yanaşı Qəmər xanım virus mənşəli gözün patologiyasının elmi və praktiki öyrənilməsində, vaxtında aşkar olunmasında və görmə funksiyasının saxlanılmasında bütün imkanlarından istifadə etmişdir. Qəmər xanımın uzun illər qüsursuz elmi-praktiki əməyi hökümət tərəfindən bir neçə medal və fəxri fərmanlarla qiymətləndirilmişdir.

Qəmər xanımın gözəl xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq, gələcək nəsillərə isə örnək olacaqdır.

**Кемер Абдулрагим кызы Адигезалова-Полчаева**

В 2010-м году исполнилось 95 лет со дня рождения замечательного представителя азербайджанской офтальмологии, ученого, известного в республике и за ее рубежами, доктора медицинских наук, профессора

Кемер Абдулрагим кызы Адигезаловой-Полчаевой (1915-1992). Профессор К.А.Адигезалова-Полчаева работала в Азербайджанском Научно-исследовательском Институте глазных болезней в должности заведующего терапевтическим отделением. Профессор К.А.Адигезалова-Полчаева, начиная с 1960 года в течение 30 лет занимала должность заместителя директора института офтальмологии по научным вопросам. Кроме того, Кемер ханым была научным руководителем отдела охраны зрения детей и подростков и отдела вирусной патологии глаз.

Проф. К.А.Адигезаловой-Полчаевой в высокой степени были присущи такие качества, как широкая научная эрудиция, незаурядное мышление, непредвзятый взгляд на мир. Она внесла много нового в представления об оптических недостатках органа зрения – аметропиях, косоглазии, астигматизме, амблиопии, анизометропии. Совместно с проф. У.С.Мусабейли она открыла такое свойство органа зрения, как аккомодация вдаль и определила его закономерности. Кроме того, в течение многих десятилетий именно под ее руководством в институте разрабатывались проблемы патогенеза трахомы, воспалительных заболеваний глаз, новообразований органа зрения, увеальной катаракты.

Проф. К.А.Адигезалова-Полчаева является автором почти 300 научных трудов, в том числе нескольких монографий, посвященных различным проблемам офтальмологии. Такие ее монографии, как «Влияние спазма аккомодации на рефракцию глаза при аметропиях» и «Анизометропия» до сих пор играют важную роль в изучении физиологии органа зрения.

Под ее руководством в институте была подготовлена целая плеяда научных кадров, успешно защищены более 10 кандидатских диссертаций. Проф. К.А.Адигезалова-Полчаева будучи талантливым ученым, высокопрофессиональным клиницистом, замечательным диагностом и офтальмохирургом, также вела большую практическую работу. Незаменима ее роль в охране детского зрения, а также в выявлении и лечении на раннем этапе различных патологий рефракции. Наряду с этим, Кемер ханым внесла большой вклад в научное и практическое изучение патологий глаза вирусной этиологии, в выявление патологий на ранних стадиях и сохранении зрительных функций. За свою многолетнюю научно-практическую деятельность Кемер ханым была удостоена несколькими медалями и почетными грамотами.

Память о Кемер ханым будет вечно жить в сердцах тех, кто ее знал, являясь достойным примером для будущих поколений.

**Kemer Abdulragim kizi Adigezalova-Polchaeva**

The year 2010 marked the 95th birthday of the remarkable representative of the Azerbaijani Ophthalmology, scientist, known in the country and abroad, MD, professor Kemer Abdulragim kizi Adigezalova-Polchaeva (1915-1992). Professor K.A. Adigezalova-Polchaeva worked in Azerbaijan Scientific-Research Institute of Eye Diseases as Head of the Therapeutic Department. For 30 years she served as Deputy Director on Science of the Institute of Ophthalmology since 1960. Besides, Kemer khanim was Scientific Supervisor of the Department of Protection of vision in children and adolescents and Department of Viral Pathology of eye.

Prof. Adigezalova-Polchaeva K.A. had such qualities as wide scientific erudition, remarkable thinking, unbiased view of the world. She offered a lot of ideas about optical defects of the vision - ametropia, strabismus, astigmatism, amblyopia, and anisometropia. Together with prof. Musabeyli U. S. she opened such a property of the vision as accommodation far and determined its patterns. Besides, for many decades it was under her leadership that the Institute developed the problems of the pathogenesis of trachoma, inflammatory eye diseases, neoplasms of eye, uveal cataracts.

Prof. Adigezalova-Polchaeva K.A. is the author of nearly 300 scientific papers, including several monographs on various aspects of ophthalmology. Her monographs such as «The influence of spasm of accommodation on the refraction of eye with ametropia» and «Anisometropia» still play an important role in studying the physiology of the organ of vision. Under her leadership, the Institute prepared a galaxy of scientists, and more than 10 candidate theses were protected.

Prof. Adigezalova-Polchaeva K.A. being a talented scientist, highly professional clinician, a wonderful diagnostician and ophthalmo-surgeon also had huge practical work. Her role in protection of children’s vision and also exposure and treatment of different refraction pathologies at early stage is indispensable. Along with that Kemer khanim contributed a lot into scientific and practical studying of eye pathologies of viral aetiology, exposure of pathologies at early stages and preserving visual functions. During her long scientific-research work Kemer khanim was awarded with several medals and honorary diplomas.

The memory of Kemer khanum will live forever in the hearts of those who knew her being a true example for further generations.